# Bayraq Günü qeyd edildi

Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü ilə əlaqədar Qəbələ Rayonunun idarə, təşkilat, müəssisələrində ümumtəhsil məktəblərində silsilə tədbirlər keçirilmişdir. Bayram tədbirlərində vətəndaşların dövlət rəmzlərinə, dövlətçilik ənənələrinə hörmət və sədaqət hissinin gücləndirilməsi, uşaqların, yeniyetmə və gənclərin Azərbaycanın milli mədəni irsi və tarixi haqqında məlumatlandırılması, onların Azərbaycanın dövlət rəmzləri haqqında biliklərinin möhkəmləndirilməsinə yönələn məruzə və çıxışlar dinlənilmişdir.

Noyabrın 7-də isə Qəbələ Mədəniyyət Mərkəzində Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə təntənəli ümumrayon bayram şənliyi keçirilmişdir.



Təntənəli bayram tədbirində rayon icra hakimiyyəti başçısının müavinləri Arif Allahverdiyev, Ətayə Osmanova, idarə, müəssisə rəhbərləri, ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Tədbiri açan aparıcılar iştirakçıları salamlayaraq qeyd etdilər ki, üçrəngli bayrağımız uzun illər yasaq edilmiş, 1990-cı ildə ulu öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində yenidən dövlət bayrağı kimi qəbul olunmuşdur. Bu bayraq Azərbaycan xalqının vicdan və qeyrət. Namus rəmzinə çevrilmişdir. Xalqımız bu bayraq altında sıx birləşir, onu daha uca zirvələrə qaldırır, müqəddəslik, şərəf və vicdan rəmzi hesab edir. Aparıcılar hörmətli Prezidentimiz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğal olunmuş Qarabağ torpaqlarında yenidən Dövlət Bayrağımızın dalğalanacağını, haqq-ədalətin zəfər çalacağını bildirdilər. İştirakçıları Dövlət Bayrağı Günü münasibətilə təbrik etdilər.




Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 9 noyabr Dövlət Bayrağı Günü münasibətilə rayon əhalisinə ünvanladığı təbriki icra hakimiyyətinin referenti Ramin Qəribov tədbir iştirakçılarına çatdırdı.

Mədəniyyət Mərkəzinin hazırladığı rəngarəng konsert proqramı iştirakçılara xoş ovqat bəxş etdi xüsusilə səslənən şeirlər, mahnılar və milli rəqslər alqışlarla qarşılandı.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar İ. Vəlizadənindir.**

# Uca bayrağımız

Biz bayrağımızla fəxr edirik. O dövlətimizin rəmzi, xalqımızın iftixarı və qürur mənbəyidir. Dövlətimizin atributlarından biri olan üçrəngli bayrağımız ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə ucaldılmışdır.



Müstəqillik qazandıqdan sonra yenidən üçrəngli bayrağımız dövlət rəmzi kimi qəbul edildi və əsas qanunumuz olan Konstitusiyada təsbit olundu. Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan bayrağın da varisliyini qoruyub saxladı.

Dövlət bayrağımızın Cümhuriyyət dövründə noyabrın 9-da qəbul olunmasını nəzərə alaraq ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə 2009-cu ildə Dövlət Bayrağı Günü təsis olundu. Bu bayramı noyabrın 9-da qeyd edirik və həmin gün qeyri-iş günüdür. Respublikamızın paytaxtı Bakı şəhərində Bayraq Meydanı tikilmiş, ətrafında Bayraq Muzeyi yaradılmışdır. Bunlar sadə tədbir deyil, xalqımızın hünərini, müstəqillik əzmini, mübarizə ruhunu ifadə edən dövlət simvoluna hörmətin ifadəsidir.

Bayrağın rəngləri də təsadüfi seçilməmişdir. Göy rəng türkçülüyü, qırmızı rəng müasirliyi, yaşıl rəng islamçılığı ifadə edir. Bu üç rəng müasirliyin və həmişəyaşarlığın rəmzidir.

Azərbaycan Respublikası Dövlət Bayrağının ən hündür dirək üzərində dalğalandığı Ginnesin rekordlar komissiyası da təsdiq edib. Bu ucalıq təkcə simvol deyil, suverenliyin, mənəvi yüksəkliyin, böyük tərəqqinin təzahürü, iradə və mətinliyin rəmzidir. Onu qorumaq və həmişə uca tutmaq hər bir vətəndaşın şərəf işi, müqəddəs borcudur.

Bu yerdə igid vətən oğulları Mübariz İbrahimovun, Fərid Əhmədovun və onlarla, yüzlərlə cəsur, qeyrətli soydaşımızın qəhrəmanlıqları, bayrağımızın təhqir olunmasına dözməyib erməni zabitini öldürən Ramil Səfərovun şücaəti və rəşadəti yada düşür. Şair gözəl deyib:

***Bayraqları bayraq edən***
***üstündəki qandır,***
***Torpaq, əgər uğrunda ölən***
***varsa vətəndir.***

# 12 noyabr— Konstitusiya günüdür

1995-ci il noyabrın 12-də Azərbaycan xalqı referendum yolu ilə öz dövlətinin Əsas Qanununu--Konstitusiyasını qəbul etdi. Bu Konstitusiya müstəqilliyini bərpa etmiş Azərbaycan dövlətinin ilk milli konstitusiyasıdır.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının layihəsni hazırlamaq üçün ulu öndər Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət komissiya yaradılmışdır. Yeni Konstitusiya 1995-ci il noyabrın 27-də qüvvəyə minmişdir.

Konstitusiyanın 24-cü maddəsinin 1-ci hissəsində deyilir: «Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır». Azadlıq--digərlərinə zərər yetirməyən hər şeyi etmək imkanıdır. Azadlığın sərhədləri yalnız qanunla müəyyənləşdirilə bilər. Qanun insan hüquqlarını istənilən pozuntudan qorumağa yönəldilmişdir. İnsan hüquqlarının və əsas azadlıqlarının beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq təmin edilməsi Azərbaycan Respublikasında

Yeni Konstitusiya ölkədə demokratik, hüquqi, dünyəvi və unitar dövlət qurulması işinə hüquqi zəmin yaratdı. Əsas Qanunda dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, cəmiyyətin demokratikləşdirilməsinə və vətəndaş cəmiyyətinin bərqərar olunmasına nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, bazar iqtisadiyyatına xas olan münasibətlərin formalaşmasını təmin etmək və s. kimi nailiyyətlər təsbit olunmuşdu.

Artıq zaman Əsas Qanunumuzun nə qədər güclü, kamil və həyatı sənəd olduğunu təsdiqləmiş və o, demokratik sənəd kimi özünü doğrultmuşdur. Bu möhkəm bünövrə üzərində ucalan dövlətçiliyimiz öz demokratik mahiyyəti ilə ümumavropa dəyərlərindən faydalanmış, xalqımız öz həqiqətinin dünyaya bəyan etmək imkanı qazanmışdır. Əsas Qanunumzda dilindən, dinindən, irqi mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün vətəndaşların hüquq və azadlıqları geniş təsbit olunmuşdur. Konstitusiyanın 158 maddəsitndən 48-i insan hüquqlarına və onların təminatlarına həsr edilmişdir. dövlətin ali məqsədi kimi təsbit edilmişdir.

Milli Konstitusiyamızın qəbul edilməsindən sonrakı dövr ərzində Milli Məclis tərəfindən ölkə həyatının bütün sahələrini əhatə edən, dünya standartlarına cavab verən bir sıra qanunlar qəbul edilmişdir. Azərbaycan Respublikası bir sıra beynəlxalq konvensiyalara qoşulmuş, Avropa Şurasına üzv qəbul olmuşdur.

Baş vermiş bu dəyişikliklərdən demokratik dəyərlərin inkişafına yönəldilmiş bir sıra islahatlardan irəli gələn hüquqi tənzimləmə öz əksini Konstitusiyada tapmalı idi. Bununla əlaqədar olaraq ulu öndər Heydər Əliyevin fərmanına əsasən 2002-ci il avqustun 24-də Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsinə dair referendum keçirildi. Xalqın iradəsinin nəticəsi olaraq Konstitusiyada 21 dəyişiklik və əlavə edildi. Bunlar insan hüquqları və azadlıqları, Azərbaycan Avropa Şurası qarşısında götürdüyü öhdəliklərlə, seçki sistemi, hakimiyyət bölgüsü və s, bağlı dəyişiklik və əlavələrdir.

**Aslan CƏLİLOV** .